Qalib QASIMOV,
sənətşünas

# İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİMİZDƏKİ MƏDƏNİ DƏYƏRLƏRİN VƏ OBYEKTLƏRİN BEYNƏLXALQ HÜQUQİ MÜHAFİZƏSİNİN ƏSASLARI

*Bəşər tarixi ərzində mədəniyyət insanların yalnız mənəvi ehtiyaclarının qarşılığı, gözəllik duyğuları və dünyadərki deyil, eyni zamanda bizim planetin bütün guşələrində yaşayan insanların ünsiyyət vasitəsidir. Hələ qəbilələr və millətlərarası düşmənçilik xalqları parçalayan zaman mədəniyyət onlar arasında əlaqəni saxlayan və bütün xalqlar üçün ümumi problemlərin həllinə şərait yaradan güclü faktor olmuşdur.*

*Həyat özü yalnız bir ölkənin gücü ilə həll oluna bilməyəcək problemlər doğurur. Elə insan təbiətinin özü də xalqlar arasında ən geniş ünsiyyətin olmasını tələb edir. Digər tərəfdən də mədəniyyət ümumdünya miqyasında ünsiyyət və mənəvi əlaqələr yaradılmasına xidmət göstərməklə yalnız hərtərəfli beynəlxalq əlaqələrin yaranmasına deyil, həm də öz inkişafına şərait yaradır.*

*Müasir dünyada məhsuldar qüvvələrin inkişafı, elmi-texniki proqres münasibətlərin internasionalizasiyasını tələb edir. Lakin ayrı-ayrı ölkələrin siyasi sistemindəki fərqlər buna mane olur. Belə şəraitdə mədəniyyət öz üzərinə beynəlxalq əlaqələrin inkişafında ən vacib faktor rolunu götürür.*

Mədəniyyət anlayışına bəşər üçün həyati əhəmiyyətli hadisə olaraq baxılması tarixi-mədəni proseslərin internasionalizə işinə kömək göstərir. Bu isə onun tarixi aspektdə öyrənilməsi və mədəni abidələrin qorunmasını ehtiva edir. Ayrı-ayrı ölkələrin bu sahədəki təkbaşına səyləri qənaətbəxş görünmür. Hazırkı vaxtda insanlığın nailiyyəti sayılan tarixi-mədəni dəyərlərin sistematik öyrənilməsi, nümayişi və qorunması işi aktivləşir. Bunun kökündə beynəlxalq hüquqi əsas dayandıqda isə belə fəaliyyətin effektivliyi və intensivliyi daha da artmış olur.

Beynəlxalq hüququn son onilliklərdə proqressiv inkişafı bu tip məsələləri reqlamentləşdirən yeni normaların yaranmasına gətirib çıxarmışdır. Müasir beynəlxalq əlaqələrdə mədəni problemlər mühüm yer tutur və əhəmiyyətli rol oynayır. Beynəlxalq münasibətlərdə mədəni əməkdaşlıq ölkələr və xalqlar arasında barış və sülh əlaqələrinin təmin olunmasının reallaşması imkanları və əlaqələrin genişlənməsi sayəsində daha da əhəmiyyət kəsb edir.

Sözün geniş mənasında beynəlxalq mədəni əlaqələr yalnız mədəni dəyərlərin və institutların, incəsənət və bütövlükdə mədəniyyət məsələlərini əhatə etməyib, həm də bir sıra digər məsələlərə də aydınlıq gətirir. O, özündə dövlətlərarası, beynəlxalq təşkilatlar və beynəlxalq münasibətlərin digər subyektləri arasında elə münasibətləri ehtiva edir ki, bu incəsənət, təhsil, elm və texnika sahəsində münasibətləri yaradır.

Bəs beynəlxalq mədəni-hüquqi münasibətlər nədir? Öz qanuni hüquq və vəzifələrinin həyata keçirilməsi ilə bağlı yuridik mədəni fəaliyyət, beynəlxalq münasibətlərin subyektlərinin daxil olduğu münasibət, beynəlxalq mədəni-hüquqi münasibətlərdir.

Analoji obrazla onların heç də hamısı mədəni dəyərlər və obyektlərin qorunması məsələsinə toxunmur. Söhbətin məhz bu yerində «mədəni dəyər» və «mədəni obyektlər» anlayışlarını izah etmək lazım gəlir. 14 may 1954-cü ildə Haaqada qəbul edilmiş «Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında» Konvensiyanın 1-ci maddəsinə əsasən Konvensiyaya müvafiq olaraq, mənşəyindən və sahibindən asılı olmayaraq aşağıdakılar «mədəni dəyərlər» və ya «mədəni mülkiyyət» sayılır:

1) hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyətə malik olan dini və ya dünyəvi memarlıq, incəsənət abidələri, yaxud tarixi abidələr, arxeoloji qazıntı yerləri, tarixi, yaxud bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları, incəsənət əsərləri, əlyazmaları, kitablar, bədii, tarixi, yaxud arxeoloji əhəmiyyətli digər əşyalar, həmçinin elmi kolleksiyalar və ya mühüm arxiv materialları kolleksiyaları, yaxud yuxarıda göstərilən dəyərlərin reproduksiyası kimi daşınar və daşınmaz dəyərlər;

2) başlıca və əsl təyinatı 1-ci bənddə göstərilən daşınar mədəni mülkiyyətin saxlanılması və ya nümayiş etdirilməsi olan muzeylər, iri kitabxanalar, arxiv xəzinələri kimi binalar, həmçinin silahlı münaqişə baş verdikdə 1-ci bənddə göstərilən daşınmaz mədəni dəyərləri (mülkiyyəti) qorumaq üçün nəzərdə tutulan sığınacaqlar;

3) 1-ci və 2-ci bəndlərdə göstərilən çox sayda mədəni dəyərlər olan «mədəni dəyərlərin cəmlənmə mərkəzi» adlandırılan mərkəzlər.

Silahlı münaqişələr əksər hallarda böyük insan tələfatı, mənasız qırğınlarla yanaşı, həm də münaqişələrin aparıldığı ərazilərdə mədəni mülkiyyətin də dağıdılmasına, talan-qarət edilməsinə səbəb olur.

Bunu biz Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiası ilə başladığı, tammiqyaslı hərbi əməliyyatlar və kütləvi qırğınlarla müşaiyət olunan silahlı hərbi təcavüz zamanı canlı şahidlər kimi hiss etməkdəyik.

Belə ki, böyük əhəmiyyət kəsb edən 500-dək tarixi memarlıq, 100-dən artıq arxeoloji abidə, fondlarında onminlərlə əşyanın toplandığı 22 muzey, 4 rəsm qalereyası, 4,6 milyon kitab və əlyazmaları saxlanılan 927 kitabxana, 808 klub, 85 musiqi və incəsənət məktəbi, 10 istirahət və mədəniyyət parkı, 20 konsert təşkilatı, bundan əla-

və əhalinin şəxsi evlərində saxlanılan 100 minlərlə dekorativ-tətbiqi sənət nümunələri - xalçalar, tikmənaxışlı qədimi geyimlər, zərgərlik və misgərlik əşyaları və s. Ermənistanın silahlı hərbi təcavüzü və 20 % torpaqların işğalı nəticəsində yandırılmış, talan-qarət edilmiş, Ermənistana daşınaraq saxtakarlıqla özününküləşdirilmiş, yaxud da onların bir qismi xarici ölkələrdə «erməni mədəniyyətinin nümunələri» adı altında satılmışdır.

***Hələ 2000 il bundan əvvəl yunan salnaməçisi Polibey fatehləri gələcəkdə fəth etdikləri şəhərləri dağıtmamağa çağırırdı. Qədim Romada Siseron müharibə vaxtı işğal olunmuş ərazilərdə mədəni mülkiyyətin yandırılması və talan edilməsi əleyhinə etiraz səsini yüksəltmişdi. Lakin erməni xalqının geniş kütlələrinin şüurunda məqsədli şəkildə erməni «tarixçi»ləri və «ideoloq»ları tərəfindən yaradılmış patoloji nifrət Azərbaycanın şəhər və kəndlərini işğal və qəsb edən erməni əsgərinin şüurunda nə ümumbəşəri dəyərlərə, nə də milli mədəni sərvətlərə hörmət hissinə yer qoymamışdır.***

Müasir beynəlxalq hüquqda bəşər sivilizasiyasının mənəvi həyatında mühüm rol oynayan mədəni və tarixi irsin, mədəni mülkiyyətin hüquqi mühafizəsi xüsusi yer tutur. Mədəni mülkiyyətin beynəlxalq səviyyədə mühafizəsi məsələləri ilə əlaqədar olaraq ilk dəfə 1899-cu və 1907-ci ildə Haaqada keçirilən Sülh Konfranslarında müzakirələr keçirilmişdi. Həmin vaxt mədəni mülkiyyətin universal anlayışı hazırlanmamışdı. Ona görə də Konfranslarda quru müharibəsinin adət və qanunlarının müzakirəsi aspektində ayrı-ayrı dövlətlər əmlakın mühafizəsi sistemini normalaşdırmağa cəhd göstərirdilər. 1907-ci il Haaqa Əsasnaməsinin 27-ci maddəsində göstərilir ki, mühasirə və bombardman zamanı imkan dairəsində ibadətgahlar, elm, incəsənət və xeyriyyəçiliyə xidmət edən binalara, tarixi abidələrə ziyan vurulmaması üçün bütün zəruri tədbirlər görülməlidir.

Mədəni mülkiyyətin silahlı münaqişələr zamanı mühafizəsi barədə növbəti və məhz bu məsələyə həsr olunmuş ilk beynəlxalq hüquqi sənəd 15 aprel 1935-ci ildə Vaşinqtonda bağlanmış «Elm və incəsənətə xidmət edən müəssisələrin, həmçinin tarixi abidələrin mühafizəsi haqqında» müqavilədir. Bu müqavilə təşəbbüskarın- rəssam, yazıçı və ictimai xadim Nikolay Rerixin adı ilə «Rerix Paktı» da adlandırılır. Lakin Rerix Paktı mədəni mülkiyyətin mühafizəsi ilə bağlı bir çox zəruri normalar müəyyən etsə də bu sənəd universal xarakter daşımırdı. Yəni, ancaq Amerika qitəsi dövlətləri üçün nəzərdə tutulmuş regional müqavilə idi.

II Dünya Müharibəsi zamanı külli miqdarda mədəni mülkiyyətin dağıdılması və mənsub olduqları dövlətdən aparılması faktı dünya birliyini tezliklə silahlı münaqişələr zamanı mədəni dəyərlərin və obyektlərin mühafizəsi ilə əlaqədar sistem yaradılması zərurəti qarşısında qoydu. Bolqarıstanla Millətlər Birliyi arasında 28 oktyabr 1944-cü ildə bağlanmış müqavilənin 2-ci maddəsi və 28 fevral 1947-ci il Paris Sülh Müqaviləsinin 22-ci maddəsi restitusiya (pozulmuş hüququ bərpaetmə və zərərini ödəmə) prinsiplərini qəti sürətdə təsbit edirdi.

Mədəni mülkiyyətin həm dinc dövrdə, həm də müharibə zamanı mühafizəsi məsələlərinin 1945-ci ildə Nizamnaməsi qəbul edilmiş BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) rolu böyükdür. Təşkilatın nizamnaməsinin 1-ci maddəsinin 2 s bəndində onun vəzifələrindən biri kimi bəşəriyyətin ümumdünya irsinin - kitabların, incəsənət əsərlərinin və tarixi elmi əhəmiyyətli abidələrin qorunub saxlanılmasının və mühafizəsinin qayğısına qalmaq göstərilmişdir. YUNESKO-nun himayəsi altında qəbul edilmiş 14 may 1954-cü il tarixli Haaqa Konvensiyasının 28-ci maddəsinə əsasən iştirakçı dövlətlər öz cinayət qanunvericilikləri çərçivəsində vətəndaşlığından asılı olmayaraq, bu Konvensiyanı pozmuş və ya pozmağı əmr etmiş şəxslərin üzə çıxarılıb barəsində cinayət və ya inzibati sanksiyalar tətbiq edilməsi üçün lazımi tədbirlərin görülməsini öz üzərlərinə götürürlər. Müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 116.0.8 maddəsində bu öhdəlik yerinə yetirildiyindən işğal olunmuş ərazilərimizdə bu tip cinayəti törədən şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün əsas yaradır.

Sözügedən Konvensiyaya əlavə Protokolda iştirakçı dövlətlərin Konvensiyanın 1-ci maddəsində müəyyən edilmiş mədəni dəyərlərin münaqişə vaxtı işğal olunmuş ərazidən çıxarılmasının qarşısını almaq öhdəliyi də öz əksini tapmışdır.

YUNESKO-nun dəstəyi ilə qəbul olunmuş «Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında» 14 noyabr 1970-ci il Konvensiyasının 2-ci maddəsi mədəni mülkiyyətin bununla bağlı bütün təhlükələrdən mühafizə olunmasını təmin edən ən təsirli hüquqi sənəd olduğunu qeyd etmək yerinə düşür.

26 mart 1999-cu ildə «Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında» 1954-cü il Haaqa Konvensiyasına 2-ci Protokol qəbul edilmişdir. Bu protokol Konvensiyanın normalarını iki istiqamətə - silahlı münaqişə zamanı mədəni mülkiyyətin mühafizəsinin gücləndirilməsi və dövlətlərin bu sahədə beynəlxalq öhdəliklərinin daha səmərəli yerinə yetirilməsini təmin etməyə yönəlmişdir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikasının Milli Məclisi bu sənədi ratifikasiya etmiş və sənəd 2004-cü il mart ayının 9-dan qüvvəyə minmişdir.

Göstərilən bütün beynəlxalq hüquqi sənədlər bir daha Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin öz çıxışlarında dəfələrlə qeyd etdiyi «Qarabağ münaqişəsinin həllində bütün beynəlxalq hüquqi sənədlər Azərbaycanın tərəfindədir» tezisinin bu istiqamət üzrə də tam doğruluğunu isbat edir.

Ölkəmizin xarici siyasətinin əsas prioriteti şübhəsiz ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə nizamlanması və işğal olunmuş ərazilərin azad olunması, məcburi köçkünlərin doğma yurd yerlərinə qaytarılmasıdır. Lakin işğal olunmuş ərazilərdəki mədəni mülkiyyətin və sərvətlərin ermənilər tərəfindən beynəlxalq hüququn ümumqəbul olunmuş norma və prinsiplərinin tapdalandığı artıq danılmaz faktdır. Bunu ermənilərin vaxtaşırı olaraq gündəmə gətirdikləri işğal olunmuş ərazilərimizdə arxeoloji qazıntıların aparılması məsələsi bir daha təsdiq edir və göstərir ki, ermənilər Azərbaycanın bütün sərvətlərini, o cümlədən də mədəni və tarixi əhəmiyyətə malik olan abidələri saxtakarlıqla özününküləşdirmək niyyətindən əl çəkmirlər.

***Azərbaycan Respublikasının müvafiq Dövlət qurumlarının və xaricdə formalaşma və təşkilatlanma dövrünü yaşayan diaspor qurumlarımızın Beynəlxalq təşkilatlar və ictimaiyyətlə bu istiqamətdə fəal əməkdaşlığı ölkəmizin tarixi və mədəni dəyərləri, mədəniyyəti haqqında geniş təbliğat işlərinin aparması, ölkə rəhbərliyinin yüksək şəxsi nüfuzu bir çox hallarda ermənilərin bu məkrli siyasətinin ifşa olunması ilə nəticələnir. Ermənistanın işğalçı siyasətinin iç üzünün dünya ictimaiyyətinə açıqlanmasına yönəlik tədbirlərin genişləndirilməsi eyni zamanda işğal olunmuş ərazilərimizdəki mədəniyyət abidələrinin qorunmasını daha da asanlaşdırır.***